*https://doi.org/10.30546/114578.2025.9.1063*

# "ƏKİNÇİ" QƏZETİNİN MÜXBİRLƏRİ: MAARİFÇİLİK DÖVRÜNÜN İDEYA DAŞIYICILARI

**Yeganə İsgəndərova**
*baş müəllim*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCID.org,/0000-0002-8467-1543*
*i.yegana90@hotmail.com*

*"Azərbaycan milli mətbuatının zəngin inkişaf yolu ictimai fikir tariximizin mühüm bir hissəsidir. Milli mətbuatımız "Əkinçi" ilə başlanan maarifçilik, yeniləşmə, çağdaş mədəni təfəkkür xəttini davam etdirərək xalqımızın milli özünüdərkində, milli oyanış prosesində müstəsna rol oynayıb. Zərdabi və onunla birlikdə bu qəzetdə əməyi olan maarifpərvər yazarlar xalqı cəhalət və qəflət yuxusundan oyatmağa çalışırdılar".*

***Azərbaycan Milli Mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2020-ci il tarixli Sərəncamı***

**Xülasə**

Azərbaycan mətbuat tarixində "Əkinçi" qəzetinin yeri və rolu əvəzsizdir. XIX əsrin sonlarında nəşrə başlayan qəzet qısa zaman kəsimində dövrün mütərəqqi fikirli ziyalılarını, maarifpərvər qüvvələri ətrafına toplaya bilmiş, maarifçilik dövrünün ideoloji təməlinin avanqardına çevrilmişdir. Qəzetin dili, auditoriyası, yayım miqyası Azərbaycanla yanaşı, Rusiyanın bir çox şəhərlərini də əhatə edir, maarifçi gənclərin – müxbirlərin maarifçilik ideyalarını yayırdı.

Müxbir yazılarında kənd təsərrüfatı məsələləri ilə yanaşı, elm, təhsil, sosial ədalət, ana dili, ictimai geriliyin tənqidi və s. məsələlər əksini tapırdı. S.Ə.Şirvani, M.F.Axundzadə, Ü.Hacibəyov, N.Vəzirov, Ə.Gorani publisitik-elmi yazıları ilə "Əkinçi"nin fəal müxbirləri və maarifçilik dövrünün ideya daşıyıcıları idilər.

**Açar sözlər:** publisistika, "Əkinçi", maarif, müxbir, ideologiya.

# CORRESPONDENTS OF THE "AKINCHI" NEWSPAPER: CARRIERS OF IDEAS OF THE ENLIGHTENMENT ERA

**Yegana Isgandarova**
*Azerbijan State Pedagogical University*

**Abstract**

The "Akinchi" newspaper holds an irreplaceable place and role in the history of Azerbaijani press. Launched in the late 19th century, it quickly gathered around itself progressive intellectuals and supporters of enlightenment, becoming the vanguard of the ideological foundation of the enlightenment era. The language, audience, and distribution of the newspaper extended beyond Azerbaijan, reaching many cities across the Russian Empire, and spreading the ideas of enlightenment through its young correspondents.

In their writings, correspondents not only addressed agricultural issues but also covered topics such as science, education, social justice, the mother tongue, and criticism of societal backwardness. Figures like S.A.Shirvani, M.F.Akhundzadeh, U.Hajibeyli, N.Vazirov, and A.Gorani were active correspondents of "Akinchi" and served as key carriers of enlightenment thought through their journalistic and scholarly articles.

**Key words:** journalism, "Akinchi", enlightenment, correspondent, ideology.

## КОРРЕСПОНДЕНТЫ ГАЗЕТЫ «ЭКИНЧИ»: НОСИТЕЛИ ИДЕЙ ЭПОХИ ПРОСВЕЩЕНИЯ

**Егяна Искендерова**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Место и роль газеты «Экинчи» в истории азербайджанской прессы незаменимы. Газета, начавшая выходить в конце XIX века, сумела за короткий срок объединить вокруг себя передовую интеллигенцию своего времени и просвещённые силы, став авангардом идеологической базы эпохи просвещения. Язык, аудитория и масштаб издания газеты охватывали не только Азербайджан, но и многие города России, распространяя просвещённые идеи просвещённой молодёжи – корреспондентов.

Помимо сельскохозяйственной проблематики, в статьях корреспондентов находили отражение такие вопросы, как наука, образование, социальная справедливость, родной язык, критика социальной отсталости и т.д. С.А.Ширвани, М.Ф.Ахундзаде, У.Гаджибеков, Н.Везиров, А.Горани были активными корреспондентами

«Экинчи» и носителями идей эпохи просвещения своими публицистическими и научными статьями.

**Ключевые слова:** публицистика, «Экинчи», просвещение, корреспондент, идеология.

## Giriş/Introduction

XIX əsrin ikinci yarısı Azərbaycan ictimai fikir tarixində maarifçilik ideyalarının yüksəliş dövrü kimi səciyyələnir. Bu dövrdə yeni düşüncə tərzinin və milli oyanışın təbliğində mətbuat mühüm vasitəyə çevrilmişdir. 1875-ci ildə Həsən bəy Zərdabi tərəfindən nəşrə başlayan "Əkinçi" qəzeti təkcə Azərbaycan mətbuatının deyil, ümumən Şərq müsəlman mətbuatının ilk nümunəsi kimi tarixə düşmüşdür. Qəzetin əsas məqsədi xalqı maarifləndirmək, cəhalətlə mübarizə aparmaq və milli kimliyi oyatmaq idi. Bu missiyanı gerçəkləşdirmək üçün qəzetdə fəaliyyət göstərən müxbirlər xüsusi rol oynamışlar. Onlar yazılarında həm ictimai problemləri işıqlandırır, həm də islahatlara çağırışlar edirdilər.

Qəzetin dili sadə və anlaşıqlı olduğundan yazıların da dili və ideyası xalq kütləsinə yönəlik idi. Həsən bəy Zərdabi baş redaktor kimi qəzet səhifələrində şəhər ziyalıları ilə yanaşı, kənd əhalisinə də müraciət edir, kənd təsərrüfatı, gigiyena, təhsil və əxlaq məsələlərinə xüsusi önəm verirdi. O, "Əkinçi" ilə müxbirlik edənlərə üz tutaraq onların sadə, aydın bir dildə yazmaqlarını tövsiyə edir, hər şeydən əvvəl, ana dilinin saflığını və gözəlliyini qorumağa çalışırdı. Bu baxımdan "Əkinçi" mətbu orqandan daha çox bir fikir platformasına çevrilmişdi. Az tirajla nəşr olunan qəzetin ilk buraxılışından ictimai təsiri böyük olmuş, bir çox müasir ziyalıların formalaşmasında və sonrakı mətbuat orqanlarının yaranmasında mühüm rol oynamışdır.

**"Əkinçi"nin ictimai rolu və tanınmış müxbirləri.** Həsən bəy Zərdabinin ətrafında toplanan və onun ideyalarını dəstəkləyən ziyalılar bu qəzetin səhifələrində öz fikirlərini ifadə etməklə yanaşı, xalqın maariflənməsi, təhsilin inkişafı, sosial bərabərliyin bərqərar olması kimi məsələləri gündəmə gətirirdilər. "*Əkinçi" qəzeti öz ətrafında dövrünün Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Adıgözəlov (Gorani), Həsən Əlqədari, Məmməd bəy Sultanov kimi qabaqcıl fikirli, demokratik əqidəli, aydın ideyalı görkəmli maarifçiləri toplamışdı. Onlar qəzet səhifələrində dövrün mənfur adətlərinə, bu adətləri əldə qalxan edib xalqı zülm boyunduruğu altında saxlamağa çalışan bəylərə, xanlara, molla və hacılara, din xadimlərinə qarşı yorulmadan mübarizə aparırdılar* [Cavadova, 1988:15]. Qəzetin müxbirləri

arasında təkcə Bakıda və Tiflisdə deyil, Şamaxı, Şuşa, Gəncə kimi bölgələrdə, Moskva, Peterburq şəhərlərində yaşayan maarifpərvər şəxslər də vardı. Bəzən isə imzasız və ya təxəllüslə çıxış edən yazarlara da rast gəlinirdi ki, bu da o dövrdə siyasi senzura və mühafizəkar dairələrin təzyiqlərindən irəli gəlirdi.

"Əkinçi"yə məktub göndərən müxbirlər, klassik mənada jurnalistlik fəaliyyəti ilə yanaşı, həm də maarifçi, müəllim və ideya daşıyıcıları idilər. Onlar yazılarında əsasən aşağıdakı mövzulara toxunur, tövsiyələrini əsirgəmir, qəzeti oxunaqlı edən yazılarla çıxış edirdilər:

* Cəhalətə qarşı mübarizə;

*Kənd təsərrüfatının inkişaf yolları;

*Xalqın dini fanatizmdən uzaqlaşdırılması;

*Qadınların təhsilə cəlb olunması;

*Ana dilinin qorunması və sadə dildə yazı mədəniyyəti;

*Qanunçuluq, ədalət, bərabərlik prinsiplərinin təbliği.

Bu mövzular sadəcə nəzəri ideyalar deyildi; onların arxasında konkret sosial ehtiyaclar və ictimai dəyişiklik arzusu dayanırdı. Məhz bu səbəbdən də "Əkinçi"nin müxbirləri dövrün ictimai düşüncəsinin mühüm aparıcı qüvvəsi sayılırdı.

Maarifçilik ideyalarının poeziyada əksini tapdığı, "Əkinçi"yə töhfələri ilə mətbuat tarixinə imza atan Seyid Əzim Şirvani qəzetin nəşrini ilk alqışlayanlardan biri olmuş, onun kütlə arasında yayılmasına, uzunömürlülüyünə çalışmışdır.

*Bəs "Əkinçi" cəlalımızdı bizim,*
*Nasehi-xoşməqalımızdı bizim.*
*Səy edin, ey güruhi-niksifat,*
*Etməsin ta bizim "Əkinçi" vəfat.*

Seyid Əzim bədii yaradıcılığı və müəllimlik fəaliyyəti ilə "Əkinçi" mühitində ideya daşıyıcısı kimi formalaşmışdır. Prof. Zaman Əsgərli yazırdı: "*S.Ə.Şirvaninin həyatının mənalı səhifələrindən birini onun böyük Azərbaycan mütəfəkkiri, jurnalisti və ictimai xadimi Həsən bəy Zərdabi ilə dostluğu və əməkdaşlığı təşkil edir. Onları bir-birinə yaxınlaşdıran ideya-məslək birliyi, xalqın maariflənməsi, yeni tipli mədəniyyətə çata bilməsi uğrunda apardıqları mübarizədə həmrəy, həmfikir olmaları idi. Zərdabi ilə dostluq Seyid Əzim yaradıcılığının yeni istiqamətdə inkişafına, əsərlərində ictimai-maarifçilik ideyalarının güclənmsinə səmərəli təsir göstərmişdir*" [AƏT, 2011:546]. Ədəbi irsinin mühüm hissəsini uşaq və gənclərin təlim-tərbiyəsinə həsr etdiyi əsərlər

içərisində "Əkinçi qəzetinə yardım üçün", "Həsən bəy Məlikov Zərdabiyə" şeirləri şairin mövqeyini aydın əks etdirir. "*Mütərəqqi ideyaların carçısı olan Seyid Əzim mühafizəkarların əleyhinə olaraq rus dilinin tədrisini, rus və Avropa mədəniyyətinin qabaqcıl nailiyyətlərindən istifadə etməyi günün vacib və zəruri məsələlərindən sayır və bu sahədə müasiri Həsən bəy Zərdabi ilə birləşirdirdi*" [Hüseynzadə, 2019:405].

Seyid Əzim "Əkinçi"nin məqsədləri ilə səsləşən fikirlər irəli sürmüş, xalqı elmə, təhsilə və tərəqqiyə çağırmışdır. Şeirlərində cəhalətə, dini fanatizmə qarşı çıxan, elmi biliklərin vacibliyini vurğulayan şairin yazıları qəzetdə müntəzəm çıxmasa da, bu mətbuat orqanının ideoloji xəttinə tam uyğun idi. O, Zərdabini "*elmi-hikmətdə ikinci loğman"* [Talıbov, 1999:226] adlandırır, "Əkinçi"nin və onun xidmətlərini xeyirxahlıq sayırdı. Şairin elm, təhsil almaq, dil öyrənməklə bağlı fikirlərinə təqdir və cavab olaraq, qəzetin 1877-ci il 9 iyun tarixli nömrəsində deyilirdi:

*Ey bizi həcv qılan şairi-dövrani-Əzim,*
*Seyyidü sərvərü sərdari-süxəndani-Əzim!*
*Dəhri-gülzari ara bülbüli-xoşxani-Əzim,*
*Əzizim, iki gözüm, cəddinə qurban, Əzim!*

*Kim deyir rus dili bid'ətdir aləmara,*
*Cahili əlsinələr xiclətdir aləmara,*
*Hər dilin mərifəti izzətdir aləmara,*
*Mərifət elminin kim eyləyir, kitman, Əzim!*

[Əkinçi, 2005:421]

S.Ə.Şirvani "Əkinçi"nin səhifələrində təkcə bədii yaradıcılığı ilə deyil, publisist yazıları ilə də çıxış etmiş, qəzetin maraqlı və məzmunca rəngarəng olmasına çalışmışdır [bax: AƏT, 2011:574].

Moskvada təhsil aldığı illərdən mütəmadi olaraq "Əkinçi" ilə əlaqə saxlayan Nəcəf bəy Vəzirov "Əkinçi" dövründə yetişən ziyalılardan biri idi. "Əkinçi" nəşrə başlayanda Nəcəf bəy Sankt-Peterburqda Petrovski-Razumovski Kənd Təsərrüfatı və Meşəçilik Akademiyasında təhsil alırdı. Qəzetin nəşri onun Zərdabi ilə tələbə-müəllim münasibətlərini daha sıx əməkdaşlığa çevirir. O, "*H.Zərdabi ilə "Əkinçi"nin şöbələri, dərc olunmuş materialların mündərəcəsi haqqında fikir mübadiləsi edir, qəzeti daha da təkmilləşdirmək barədə müxtəlif məsələlərə dair tövsiyələr verirdi*" [AƏT, 2011:574]. Təsadüfi deyil ki, ədəbiyyatşünaslıqda Vəzirovun publisistik yaradıcılığının birinci – 70-ci illər mərhələsi "*Əkinçi" qəzetinin ideya istiqaməti, müasir elmi bilikləri, demokratik*

*fikirləri yaymaqla əhalinin düşüncə tərzinə yenilik gətirmək məqsəd və məramı*" [AƏT, 2011:636] ilə bağlı hesab edilir.

"Nəcəf", "Nəcəf bəy", "Nəcəf Vəzirzadə" imzaları ilə qəzetdə əkinçilik, təhsilalma məsələləri ilə çıxış edən N.Vəzirov zamanla qəzetin məqsədlərinə uyğun olaraq, teatr vasitəsilə xalqın maariflənməsinə də xidmət etmiş, yazılarında və əsərlərində cəhalət, nadanlıq, qadın azadlığı kimi mövzularda maarifçi fikirlər səsləndirmişdir. "Əkinçi"nin 1876-cı il 6 noyabr tarixli nömrəsində dərc olunan yazısında ədib köhnə tədris üsuluna qarşı çıxır, mollaxana tədrisinin geriliyini pisləyir, dərs öyrənməyin fəziləti, məktəbin insanın həyatında, tərbiyələnməsində, şəxsiyyət kimi formalaşmasında rolu məsələlərinə toxunur: "*Uşağın bədəni mum kimi bir şeydir, uşaqlıqda ona hər nə surət verilsə, o surət onda baqi olacaq, yəni məktəbxana insanın insan olmağına baisdir. Belə də bizim məktəbxanalara baxan gərək bizi adam hesab eləməsin. Biçarə uşağı gətirib mollaya verəndə əvvəl zaman molla onu bir böyük şagirdə tapşırır ki, ona ustad deyirlər. Ustad onu öyrədir: əlifdən beyətən, yüyürdüm evətən... Xülasə, bir neçə günün müddətində onu özü kimi edir. Məktəbdə mollanın falaqqası və çubuğu, ustadın və qeyri şagirdlərin qapazı, evdə ata və ananın yumruq, silləsi və onların hamısının bəd əməli biçarə uşağın bir az zamanda oğru, yalançı və hər bədbihesablıqdan xəbərdar edir. Necə eləməsin ki, bu şərtlərdən daş daşlığı ilə əzilib tamam olar. Uşağın zərif bədəni buna davam edərmi?"* [Əkinçi, 2005:291].

Qəzetin səhifələrində maarif və islahat mövzulu yazıları ilə diqqət çəkən müxbirlərdən biri də Əsgər ağa Gorani idi. O, Əkinçi" qəzetinin bilavasitə müxbirlərindən biri kimi tanınır. Onun sadə, aydın dili və praktik məsələlərə toxunan yazılarında əsas diqqət kənd təsərrüfatına, xalqın sosial vəziyyətinə və maarifin zəruriliyinə yönəlmişdi. Əsgər ağa müxbir və həmfikir olaraq Həsən bəy Zərdabinin ideyalarını yerli camaata çatdırmaqda mühüm rol oynamışdır. Onun məktublarında kənd təsərrüfatı məsələləri, məktəb üsul-idarəsi, elm öyrənməklə bağlı maraqlı fikirlər əksini tapmışdır. Ə.Goraninin yazıları daha çox qəzetin "Elm xəbərləri", "Təzə xəbərlər", "Məktubat" bölmələrində nəşr olunurdu. Məktublarından birində Goraninin müəllim peşəsi və təlim üsulu ilə bağlı pedaqoji yanaşması diqqət çəkir. Onun fikrincə, müəllim bir sənətkar babadır və öz sənətilə sənətkar kimi dolanır. Sənətkarın yaxşı-yamanlığına səbəb də camaatdır "*...və əgər camaat başa düşə ki, bu tövr təlim uşağı xarab edir və xahiş edə ki, qeyr tövr uşaqlara təlim olunsun, müəllim naəlac qalıb camaat istəyən tövrdə təlim edəcək yoxsa zikr olan başmaqçı kimi gərək müəllimliyi bərhəm etsin"* [Əkinçi, 2005:413].

Gorani müsəlmanların təhsilini ermənilərin elm təhsil etməyilə müqayisə edərək göstərir ki, Qafqazın hər bir şəhərində onların gimnaziyaya bərabər məktəbxanaları var, hətta akademiyaları da var, amma bizim bircə də elm oxuyan məktəbimiz yoxdur. Uşaqları millətin ümidi sayan maarifpərvər ədib millətin gələcəkdə xoşbəxt ya bədbəxt olmağına səbəb uşaqların əvvəldən yaxşı ya yaman tövr ilə əlif-beyi oxumaqlarında görürdü.

"Əkinçi"yə ideya təsiri, dil və düşüncə islahatları ilə dəstək olan maarifçi realist Mirzə Fətəli Axundzadə "Əkinçi" qəzetində birbaşa müxbir kimi çıxış etməsə də, onun ideoloji təsiri qəzetin ruhunda öz əksini tapırdı. Həsən bəy Zərdabi dəfələrlə Axundzadənin fikirlərinə istinad etmişdir. Axundzadənin dil islahatı, təhsilin zəruriliyi, dini geriliyə qarşı çıxmaq kimi məsələlərlə bağlı yaradıcılığında əksini tapan fikirlər "Əkinçi"nin də əsas mövzuları arasında idi.

Dövrün maarifçilik xəttini musiqi və mətbuat sahəsində davam etdirən Üzeyir Hacıbəyovun "Əkinçi"də imzası olmasa da, mətbuatda çıxışları və Zərdabinin fikirləri ilə yaxınlığı səbəbindən onu bu ideoloji cərəyanın davamçısı kimi qiymətləndirmək olar.

"Əkinçi"nin səhifələrində Əhsənül Qəvaid, Möhsün Badkubeyi, Harayçı qardaş, Məhbus Dərbəndi, Hadiyül-Müzillin Qarabaği, Heydəri, Dərbəndi, Məhəmmədəli-İsna əşəriyi-Səlyani, Əlizadə Şirvani, Haşimül-Qəvaid kapitan Sultanov, Məhəmmədtağı Əlizadə Şirvani, Məmnun Əlqədari, Ələkbər Elçizadə imzaları bu mətbu orqanın bir çox ədəbi qüvvələri ətrafına topladığını, Zərdabinin isə "əməkçi xalqa, onun tarixi mənafeyinə, tərəqqisinə, mübarizəsinə xidmət edən. ictimai zülmə, haqsızlıq və rəzalətə qarşı çevrilən mətbuatın tərəfdarı və xadimi" olduğunu bir daha təsdiq edir.

**Nəticə/Conclusion**

"Əkinçi" müxbirləri – Seyid Əzim Şirvani, Mirzə Fətəli Axundzadə, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqaları – ya birbaşa, ya da dolayısı ilə qəzetin ideoloji xəttinə dəstək verərək cəmiyyətin maarifləndirilməsinə çalışmışlar. "Əkinçi"nin müxbirləri dövrün ictimai-siyasi və mənəvi həyatında önəmli yer tutmuş, gələcək nəsil ziyalıların yetişməsində, milli özünüdərkin formalaşmasında və mətbuat ənənələrinin yaradılmasında silinməz iz buraxmışlar. Həsən bəy Zərdabinin rəhbərliyi ilə nəşr olunan bu qəzet, xalqın sosial-mədəni səviyyəsinin yüksəldilməsi, elmin və təhsilin təbliği, ictimai şüurun oyadılması sahəsində mühüm rol oynamışdır. Qəzetin ətrafında formalaşan müxbir kontingenti isə bu ideyaların geniş kütlələrə çatdırılmasında mühüm vasitə olmuşdur. Müxbirlik fəaliyyətinin bu erkən mərhələsində formalaşan düşüncə tərzi, sonrakı mətbu orqanlar – "Ziya", "Kəşkül", "Molla

Nəsrəddin" və s. qəzet və jurnallarda öz davamını tapmışdır.

"Əkinçi" iki il fəaliyyət göstərib güman edildiyindən tez bağlansa da, onun ideyaları illər sonra Azərbaycan yazıçılarını bir məslək ətrafında topladı. *"Əkinçi" onlar üçün xəlqiliyin, əməkçilərə təmənnasız və sədaqətlə xidmətin, ideyalılığın, ictimai və milli zülmə qarşı mübarizənin, dogma mədəniyyət və ana dilinin tərəqqisi uğrunda çalışmağın, dünya elminin nailiyyətlərini yaymağın, prinsipial, doğruçu, demokratik mətbuatı inkişaf etdirməyin ilhamverici, gözəl bir nümunəsi olmuşdu"* [Mirəhmədov, 2005:6].

## ƏDƏBİYYAT/REFERENCES

1. Cavadova, E. (1988). Sətirlərdə döyünən ürək. – Bakı: Azərnəşr. − 160 s.
2. Əkinçi. 1875-1877 (tam mətni) (2005). – Bakı: "Avrasiya Press". – 496 s.
3. Hüseynzadə, R. (2019). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. – Bakı: ADPU-nun nəşriyyatı. – 538 s.
4. Mirəhmədov, Əziz (2005). Birinci Azərbaycan qəzeti. "Əkinçi". 1875-1877 (Tam mətni). − Bakı: Avrasiya Press. – 496 s.
5. Talıbov, Y., SAdiqov, F., Quliyev, S. (1999). Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. – Bakı: "Ünsiyyət". − 516 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* 12.06.2025
*Qəbul edilib* 03.07.2025
*Nəşrə tövsiyə edib* Razim Məmmədov
*filologiya üzrə fəlsəfə doktoru, dosent*